# Azərbaycan Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mayın 21-də “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda keçirdiyi müzakirələrdə qlobal gündəlikdə duran mühüm məsələlər – Cənubi Qafqaz regionunda yaranan kəskin dəyişikliklər, yeni vəziyyətdə yeni yanaşmaların tələb edilməsi ilə yanaşı, işğaldan azad edilən ərazilərdə bəpa-quruculuq layihələri barədə də ətraflı danışılıb.**



***Biz bir milyondan çox insan üçün yaşayış evləri tikməli və infrastruktur yaratmalıyıq. Livan boyda ərazilərdə işlər görülməlidir, bunların böyük hissəsi də dağlıq ərazilərdir ki, bu da işləri bir qədər çətinləşdirir. Biz bu işə sadiqik və bunu edəcəyik. Lakin, ilk növbədə, biz əraziləri minalardan təmizləməliyik, çünki onlar çox təhlükəlidir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Dövlətimizin başçısı çıxışında düşməndən təmizlənən torpaqlardakı yaşayış sahələrinin tamamilə dağılmış vəziyyətdə olduğunu bildirib: “Mənim azad olunmuş ərazilərə çoxsaylı səfərlərim olub və avtomobillə hərəkət edərkən 400-450 kilometr yolboyu yalnız dağıdılmış şəhər və kəndlər görünür. Son altı ay ərzində mənin azad olunmuş ərazilərə bir çox səfərlərim olub, şəhər və kəndlərin 90 faizi tamamilə dağıdılmış vəziyyətdədir. Həmin dağıntılar Birinci Qarabağ müharibəsi zamanı baş verməyib. Bu şəhərləri bombardman etməklə bu hala salmaq mümkün olmazdı. Bunlar sonrakı dönəmdə baş verib. Əvvəlcə, onlar bizim inşa etdiyimiz evlərin və məktəblərin tikinti materiallarını, dam örtüklərini və pəncərələrini oğurlayırdılar. Daha sonra isə onlar işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsini silməyə çalışırdılar – işğal altındakı torpaqlarda 60-dan artıq məscid dağıdılıb”.

Prezident İlham Əliyev daha sonra vurğulayıb ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən,



Ağdam, Laçın və Kəlbəcər rayonlarında məskunlaşan ermənilərə əraziləri tərk etmək üçün 20 gün vaxt verildi. Həmin müddət ərzində onlar yaşadıqları, lakin o ərazilərdən qovulan azərbaycanlıların tikdikləri evləri, həyətlərdəki, yolların kənarlarındakı ağacları yandırdılar, digər vandalizm aktları törətdilər.

İndi o ərazilərdə bərpa-quruculuq işlərinə, necə deyərlər, sıfırdan başlanılıb. İnfrastruktur layihələrinə start verilib. Dövlətimizin başçısı azad olunmuş əraziləri “yaşıl enerji” zonası elan edib. Həmin yerlərdə əsasən bərpaolunan enerji mənbələrindən – su, günəş və külək enerjisindən istifadə edilməsi nəzərdə tutulub.

Bu gün bərpa-quruculuq prosesi vahid mərkəzdən həyata keçirilir. Bütün işlər ardıcıllıqla reallaşdırılır, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün ərazilər minalardan təmizlənir, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyan qiymətləndirilir, lazımi inventarlaşdırma, pasportlaşdırma tədbirləri aparılır, infrastruktur layihələri icra edilir.

Düşməndən təmizlənən ərazilərdə sosial infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunması üçün dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb edilir. Böyük quruculuq layihələrinə dost ölkələrin qoşulması siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir.

Burada bir məqam xüsusi qeyd edilməlidir. Belə ki, Azərbaycan bu gün bəlkə də bərpaolunan enerjiyə investisiya yatırmaq ehtiyacı olmayan ölkədir. Dövlətimizin başçısının “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda keçirilən müzakirələrdə bildirdiyi kimi, respublikamızda böyük təbii qaz yataqları var: “Hazırda biz enerji istehsalımız üçün təmiz enerji kimi təbii qaz və sudan istifadə edirik. Biz kömürdən, neftdən istifadə etmirik, ona görə də ekologiyaya dəyən ziyan minimumdur. Lakin məsuliyyətli ölkə və gələcək barədə düşünən hökumət kimi biz bərpaolunan enerji üçün investorlar cəlb etməyə başlamışıq…”.

Burada onu da xatırladaq ki, Qarabağ və ətraf rayonlarımızda enerji istehsalı üçün böyük potensial var. Bu potensial hesabına işğal illərində Laçın rayonunda 5, Kəlbəcərdə isə 12 su elektrik stansiyası fəaliyyət göstərib. İşğalçı ölkə elektrik enerjisinə olan tələbatının 30 faizini bu bölgənin hesabına təmin edib. Düşmən bu əraziləri tərk edərkən xislətinə uyğun olaraq həmin stansiyaların bütün avadanlıqlarını aparıb, apara bilmədiyini isə dağıdıb.

Bu ilin fevral ayında təmirdən sonra istismara verilən Laçın rayonundakı “Güləbird” Su Elektrik Stansiyasının açılışında Prezident İlham Əliyev deyib: “Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik”.

Prezident İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq bir neçə gün bundan əvvəl işğaldan azad olunmuş Suqovuşan qəsəbəsinə 110/35/6 kV-luq Tərtər yarımstansiyasından 35 kV-luq yeni elektrik veriliş xətti çəkilib.

Hazırda “ağıllı şəbəkə” konsepsiyası işğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Suqovuşan ərazisində də tətbiq edilir.

Azərbaycan Qarabağ ərazisində 10-dan çox su elektrik stansiyası yaratmağı planlaşdırır. İranla Azərbaycan sərhədindəki iri su anbarının böyük potensialına əsaslanılaraq, 240 meqavat gücündə su elektrik stansiyasının tikilməsi də nəzərdə tutulub.

Prezident İlham Əliyev “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı müzakirələrdə qeyd edib ki, erməni işğalçılarının şəhər və kəndlərimizi dağıtmaqda əsas məqsədlərindən biri o olub ki, azərbaycanlılar heç vaxt doğma yurdlarına geri dönə bilməsinlər və əslində, bu gün geri dönmək üçün heç bir şərait yoxdur: “Sovet dövründə Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan, yalnız şəhər əhalisi 40 min nəfərdən ibarət Ağdam tamamilə dağıdılıb”.

Dövlətimizin başçısının müzakirələrdə vurğuladığı kimi, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da tarixdə misli görünməmiş vandallıq ediblər. Bir vaxtlar şöhrəti ilə tanınan Ağdam şəhəri atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Şəhərdən əsər-əlamət qalmayıb. Ermənilər Ağdamda xalqımızın tarixi-mədəni irsinə qarşı da vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Düşmən Şahbulaq qalasını erməniləşdirməyə çalışıb, tarixə qarşı cinayətkarlıq edib.

İşğaldan azad edilmiş Ağdam şəhərinin yenidən qurulması üçün artıq işlərə başlanılıb. İlkin olaraq işğal dövründə ermənilər tərəfindən dağıdılmış tikililərin söküntüsü həyata keçirilir.

Qeyd edək ki, düşməndən təmizlənən ərazilərimizdə Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin yenidən qurulması da davam etdirilir.

Avtomobil yolunun uzunluğu 45 kilometrdən artıqdır. Ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün isə ötən il Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ilkin olaraq 5 milyon manat ayrılıb. O cümlədən, 2021-ci il dövlət büdcəsində dəmir yolu xəttinin tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaiti nəzərdə tutulub.

İşğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri çərçivəsində cari ilin sonunadək düşməndən təmizlənən yaşayış məntəqələrinin 100 faiz elektrik enerjisi ilə təmin edilməsində qarşıya əsas məqsəd kimi qoyulub. Bununla yanaşı, qələbənin ilk günlərindən etibarən magistral yolların bərpası da diqqətdə saxlanılıb.

İşğaldan azad edilən ərazilərin bərpası dünyanın ən qabaqcıl texnologiyalarının tədbiqi ilə reallaşdırılır. Qarabağda “ağıllı kənd” layihəsi icra olunur.

Bu konsepsiyanın həyata keçirilməsi Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə təsdiqlənən “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda öz əksini tapıb. Cari il aprelin 19-da isə dövlətimizin başçısı “ağıllı şəhər” (Smart City) və “ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında müvafiq sərəncam imzalayıb.

Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun Birinci Ağalı və İkinci Ağalı kəndlərinin ərazisində “ağıllı kənd” layihəsinin təməli qoyulub və hazırda tikinti işləri davam etdirilir.

Yeri gəlmişkən, xatırladaq ki, “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyasının əsas ideyası yaşayış məntəqəsinin bütün xidmət və obyektlərini vahid kompüterləşdirilmiş sistemdə birləşdirib idarə etməkdən ibarətdir. Həmin ərazidə göstərilən xidmət və yerləşən obyektlərin fəaliyyəti nəticəsində formalaşan və müvafiq qərarların real vaxt rejimində qəbul olunması üçün lazım olan məlumatlar informasiya-kommunikasiya və Əşyaların İnterneti (IoT) texnologiyalarından istifadə edilməklə toplanaraq istifadə olunur.

Ümumiyyətlə, “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyasının mahiyyəti informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə daha yüksək dövlət xidməti, operativliyin artırılması, məlumatların ictimaiyyətlə bölüşdürülməsi, eyni zamanda, “ağıllı” texnologiyalardan və məlumat təhlilindən istifadə edərək vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Hazırda bu ərazilərdə nəhəng yenidənqurma işləri həyata keçirilir, o cümlədən, onilliklərlə davam edən Ermənistan işğalı zamanı yerlə yeksan edilmiş tarixi, mədəni və dini irsimiz bərpa olunur.

Şuşa şəhərində həyata keçirilən geniş miqyaslı quruculuq işləri çərçivəsində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir. Bu yenidənqurma işləri Şuşanın tarixi simasının bərpa edilməsi məqsədilə, məhz orijinal memarlıq üslubuna uyğun olaraq həyata keçirilir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***